MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

# ŞAGİRD YERDƏYİŞMƏSİ ELEKTRON XİDMƏTİ (www.sy.edu.az) ÜZRƏ TƏLİMAT

*Valideyn və digər qanuni nümayəndə üçün*

# Daxilolma üsulları:

Valideynin (və ya digər qanuni nümayəndənin) şəxsi kabineti varsa, **"FİN kod"** və **"Şifrə"** vasitəsilə sistemə daxil ola bilər. Əlavə olaraq "Digital login"-lə giriş vasitələrinin biri ilə də sistemə daxil olmaq mümkündür.

**"Digital login"** ilə giriş zamanı valideyn (və ya digər qanuni nümayəndə) **"Tənzimləmələr"** menyusuna yönləndiriləcək. **"Mobil nömrə"** xanasına **"+994xx1234567"** formatında nömrəni daxil edərək, əldə etdiyi təsdiq kodunu  müvafiq xanaya yazlr. Daha sonra şifrə təyin edərək yadda saxlayır. Bundan sonra sistemin menyularına keçid etmək mümkündür.



# Sistemdən istifadə:

Sistemdən istifadə üçün ilk öncə valideyn (və ya digər qanuni nümayəndə) **www.sy.edu.az** elektron portalına daxil olaraq qeydiyyatdan keçməlidir. Portala daxil olduqdan sonra **"QEYDİYYAT"** düyməsi sıxılmalı və müvafiq səhifəyə keçid edilməlidir.



# Valideyn qeydiyyatı:

Açılan pəncərədə:

- Azərbaycan Respublikasının vətəndaşı – şəxsiyyət vəsiqəsinin fərdi identifikasiya nömrəsi ilə (FİN kod);
- Xarici vətəndaş – müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin nömrəsi ilə (MYİ və ya DYİ) qeydiyyatdan keçir.

Müvafiq seçimi etdikdən sonra **"Qohumluq dərəcəsi"** (Valideyn və ya qanuni nümayəndə) seçimi edilir.



# FİN kod ilə qeydiyyat:

"Azərbaycan Respublikasının vətəndaşı" FİN kodunu və təvəllüdünü müvafiq xanalara daxil edərək "Mən robot deyiləm" seçimini təsdiqləyir və **"Yoxla"** düyməsini sıxır.









# FİN vasitəsilə gələn məlumatların təsdiqi

**"Yoxla"** düyməsini sıxdıqdan sonra məlumatlar əks olunur. Məlumatlar doğrudursa, **təsdiqlənib** növbəti (NÖVBƏTİ) düyməsi sıxılır.



# Xarici vətəndaş qeydiyyatı:

Valideyn (və ya digər qanuni nümayəndə) xarici vətəndaş olduqda "Vətəndaşlıq" hissəsindən "Xarici vətəndaş" seçib MYİ və DYİ vəsiqəsinin nömrəsini müvafiq xanaya daxil edib, “Mən robot deyiləm” seçimini təsdiqləyib **“Yoxla”** düyməsini sıxır.

Məlumatların düzgünlüyü təsdiq etdikdən sonra, NÖVBƏTİ düyməsi sıxılır.










MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

# Mobil nömrə təsdiqi:

Növbəti pəncərədə valideyn (digər qanuni nümayəndə) Azərbaycan mobil rabitə operatoruna məxsus aktiv nömrəsini daxil edərək **"Təsdiq kodunu göndər"** düyməsini sıxır *(Şəkil a)* və nömrəsinə göndərilən 6 rəqəmli təsdiq kodunu müvafiq xanaya yazıb təsdiqləyir *(Şəkil b)*.




**Şəkil a**




**Şəkil b**

# Elektron poçt, şifrə təyini və digər valideyn (digər qanuni nümayəndə) qeydiyyatı:

Növbəti pəncərədə valideyn (və ya digər qanuni nümayəndə) elektron poçt ünvanını və özü tərəfindən təyin edilən şifrəsini müvafiq xanalara daxil edir və NÖVBƏTİ düyməsini sıxaraq qeydiyyatı yekunlaşdırır.

**Qeyd:** Digər valideyni də kabinetə əlavə etmək üçün "Digər valideynin qeydiyyatı" hissəsini qeyd etməlidir. Şəxsi kabinetinizə ilk daxil olan zaman "Valideyn əlavə et" səhifəsi açılır və yuxarıda qeydiyyat zamanı edilən bütün proseslər təkrar edilərək valideyn əlavə edilir.

**Xüsusi qeyd:** Digər valideynin sy.edu.az sistemində qeydiyyatı olmamalıdır.



# E-poçt, şifrə təyini və digər valideyn qeydiyyatı:

Növbəti pəncərədə valideyn (və ya digər qanuni nümayəndə) e-poçt ünvanını və özü tərəfindən təyin edilən şifrəsini müvafiq xanalara daxil edib NÖVBƏTİ düyməsini klik edib, qeydiyyatı yekunlaşdırır.

**Qeyd:** Digər valideyni də kabinetə əlavə etmək üçün "Digər valideynin qeydiyyatı" hissəsini qeyd etməlidir. Şəxsi kabinetinizə ilk daxil olan zaman "Valideyn əlavə et" səhifəsi açılır və yuxarıda qeydiyyat zamanı edilən bütün proseslər təkrar edilərək valideyn əlavə edilir.

**Xüsusi qeyd:** Digər valideynin də sy.edu.az sistemində qeydiyyatı olmamalıdır.



# VALİDEYN ŞƏXSİ KABİNETİNİN İMKANLARINDAN İSTİFADƏ

*www.sy.edu.az*

# Əsas səhifə

Bu səhifədə valideyn (digər qanuni nümayəndə) övladlarının təhsil məlumatlarını görə bilər. Əgər məlumatlarda uyğunsuzluq olarsa, **"Məlumatları yenilə"** düyməsinə sıxaraq məlumatları yeniləyə bilər.



# Şagird əlavə et

Valideyn (digər qanuni nümayəndə) övladını siyahıda görmürsə, bu menyudan övladının FİN kod və ya UTİS kodunu, övladının təhsil aldığı məktəbin yerləşdiyi rayonu və məktəbin nömrəsini daxil edib "Yoxla" düyməsini sıxır.

Açılan pəncərədə övladının məlumatlarını təsdiq edir və məlumatları yadda saxlayır.



# Sorğu yerləşdir

Validеyn (digər qanuni nümayəndə) övladları üçün yerdəyişmə etmək istədiyi təhsil müəssisəsinə sorğunu bu menyudan icra edə bilər. Bunun üçün məktəbin növünü seçdikdən sonra "Şagird", "Rayon", "Məktəbin nömrəsi", "Sinif" xanalarını müvafiq olaraq doldurub "Yadda saxla" düyməsini sıxır. Sorğu haqqında məlumatlarla tanış olur və "Təsdiq et" düyməsini sıxır.






# Sorğularım

Validеyn (və ya digər qanuni nümayəndə) bu menyuda yaratdığı sorğuların statusu haqqında məlumatları görə, sorğuya baxa və ya sorğunu silə bilər.

**Qeyd:** Yaradılmış sorğunu silmək üçün sizə təsdiq kodu göndəriləcəkdir. Sil düyməsinə vurduqda açılan xanaya nömrəyə göndərilən kodu daxil edib əməliyyatı təsdiqləməlidir.






# Növbəyə yazıl

Validеyn (və ya digər qanuni nümayəndə) bu menyuda boş yer olmayan siniflərə yazılmaq üçün növbəyə yazıla bilər. Bunun üçün valideyn (və ya digər qanuni nümayəndə) şagirdi, məktəbin yerləşdiyi rayonu, məktəbin nömrəsini və sinfi seçib **"Növbəyə yazıl"** düyməsini sıxır.  Daha sonra növbənin mərhələləri ilə tanış olub məlumatı təsdiqləyir.



# Növbələrim

Valideyn (və ya digər qanuni nümayəndə) bu menyuda yazıldığı növbələrin statusu haqqında məlumatları, növbə sırasını görə, növbəyə baxa və ya növbəni silə bilər.

**Qeyd:** Yaradılmış növbəni silmək üçün sizə təsdiq kodu göndəriləcəkdir. Sil butonuna vurduqda açılan xanaya nömrəyə göndərilən kodu daxil edib, əməliyyatı təsdiqləməlidir.




MÜTDA
MƏKTƏBƏQƏDƏR VƏ ÜMUMİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

# İmtahanlar

Valideyn (və ya digər qanuni nümayəndə) bu menyuda yazıldığı "Məktəblərin xüsusi imtahanları" və "Mərkəzi İmtahan«-a buraxılış vərəqəsi əldə edə və imtahan məlumatlarını izləyə bilər. Mərkəzi imtahanda keçid balını topladığı halda "Lisey seçimi" edə bilər.



# Mərkəzləşdirilmiş imtahan olan lisey və gimnaziyalar

Valideyn (və ya digər qanuni nümayəndə) bu menyuda mərkəzi imtahanla qəbul aparılan lisey və gimnaziyaları görə və onlar haqqında ətraflı məlumata baxa bilər.

Həmçinin "Mərkəzi imtahan qaydaları" bölməsindən bu lisey və gimnaziyalara qəbul qaydası ilə tanış ola bilər.



# Əks-əlaqə

Valideyn (və ya digər qanuni nümayəndə) bu menyuda suallarını uyğun olaraq yerli təhsili idarəetmə orqanına ünvanlaya bilər. Bunun üçün "Yeni" düyməsini klik edib, tabeçiliyi seçib müraciətin mətnini daxil edib, fayl varsa əlavə edib, "Mən robot deyiləm" təsdiqləyib "Göndər" düyməsini sıxmalıdır.






# Tez-tez verilən suallar

Valideyn (və ya digər qanuni nümayəndə) tez-tez verilən suallar və cavabları ilə bu menyudan tanış ola bilər.



# Tənzimləmələr

Valideyn (və ya digər qanuni nümayəndə) bu menyuda şəxsi məlumatlarını görə, onları yeniləyə və profilini silə bilər.

Şifrəni yeniləmək üçün cari və yeni şifrəni müvafiq xanalara daxil edib şifrəni dəyişə bilər.



# Arxiv

Valideyn bu menyuda əvvəlki illərin məlumatlarını görə bilər.



# Əlaqə məlumatları və vətəndaş qəbulu mərkəzləri:

**Çağrı Mərkəzləri və "Whatsapp" Xidməti:**

Sual (məlumat) xarakterli müraciətinizi Elm və Təhsil Nazirliyinin 146 Çağrı Mərkəzinə zəng etməklə və "Whatsapp" xidmətinə yazmaq

146 - 1: Bakı şəhərində yerləşən ümumi və məktəbəqədər təhsil müəssisələri ilə bağlı;
146 - 2: Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi ilə əlaqə yaratmaq üçün;
146 - 3: Müəllimlərin işə qəbulu, iş yerinin dəyişdirilməsi, daimiləşməsi və sertifikasiyası ilə bağlı;
146 - 4: Məktəblərdə avadanlıq, bağlantı və şəbəkə üzrə texniki dəstək üçün;
146 - 5: Təhsil Tələbə Kredit Fondu ilə əlaqə yaratmaq üçün;
146 - 6: Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi ilə əlaqə yaratmaq üçün;
146 - 6-1: Qarabağ Universiteti ilə əlaqə yaratmaq üçün;
146 - 6-0: Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi ilə əlaqə yaratmaq üçün;
146 - 7: Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə əlaqə yaratmaq üçün;
146 - 8: Təhsildə Keyfiyyət Təminatı Agentliyi ilə əlaqə yaratmaq üçün;
146 - 9: Dövlət Proqramı İdarəetmə Qrupu ilə əlaqə yaratmaq üçün;
146 - 0: Regional təhsil idarələri ilə əlaqə yaratmaq üçün;
146 - 0-1: Abşeron-Xızı Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-2: Gəncə-Daşkəsən Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-3: Mərkəzi Aran Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-4: Qarabağ Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-5: Lənkəran-Astara Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-6: Mil-Muğan Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-7: Quba-Xaçmaz Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-8: Qazax-Tovuz Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-9: Şirvan-Salyan Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün;
146 - 0-10: Dağlıq Şirvan Regional təhsil idarəsi ilə əlaqə yaratmaq üçün.la müraciətinizi ünvanlaya bilərsiniz;
+994512067848: "Whatsapp" xidməti.

**Vətəndaşlara xidmət mərkəzlərinin ünvanlarını https://edu.gov.az/contact linkindən ətraflı öyrənə bilərsiniz.**

# TƏŞƏKKÜR EDİRİK!